# Xanağabulaqdan başlanan yol



Fehruz Mustafa oğlu Əhmədov 12 mart 1961-ci ildə Cəbrayıl rayonunun Xanağabulaq kəndin-də anadan olub. 1968-1971-ci illərdə Xanağabulaq kənd ibtidai məktəbində, 1971-1976-ci illərdə Qazanzəmi kənd səkkizillik məktə-bində, 1976-1978-ci illər-də isə Yenikənd (Dağtumas) kənd 10 illik məktəbində təhsil almaqla orta təhsilini başa vurub. 1979-1981-ci illərdə Ru-siya Federasiyasının Vla-divostok şəhərində - Sakit Okean Donanmasında sovet ordusunda əsgəri xidmət keçdikdən sonra Fehruz Əhmədov taleyini Bakı və Sumqayıt şəhərlərinə bağlayır. Əmək fəaliyyətinə 1981-1984-cü illər ərzində Bakı şəhərində fəhlə işləməklə başlayır. Lakin ürəyindəki ali təhsil almaq həvəsi onu rahat buraxmadığından, 1984-cü ildə sənədlərini İnşaat Mühəndisləri Universitetinə verir, qəbul olur və 1990-cı ildə oranı ali təhsilli texnoloq kimi başa vurub, ali təhsilə yiyələnir. Lakin o, ixtisası üzrə işləməyə, necə deyərlər, macal tapmır. Rüzgarın dəyişməsi, çərxi-fələyin tərsinə dövran eləməsi və vətənimizin başı üstünü qara duman alması bir qeyrətli vətən övladı kimi Fehruz Mustafa oğlunu da narahat edir. Axı necə də narahat etməyə bilərdi. Axı o, elin-obanın şad günlərində camaatla bir yerdə olub toy məclisləri aparan Aşıq Mustafanın oğlu idi. Atası camaatın xeyir işlərini öz qara zurnası ilə "mazata mindirib" – çal-çağırlı etdiyi kimi, indi də xalqın ağır günlərində Aşıq Mustafanın oğlu olan Fehruz da bir gənc kimi silaha sarılmağa qərar verdi. 1990-1991-ci ildə milis nəfəri kimi Xüsusi Təyinatlı Milis Dəstəsinə qoşuldu. O dəstəyə ki, - o dəstənin adı baş hərflərlə ruscaya tərcümə olunanda, OMON kimi hallandırılır və ermənilər də, hətta ruslar da "OMON" – çuların adı gələndə "tük salırdılar" –zağ-zağ əsirdilər.

Fehruz Əhmədov 1991-1993-cü illər Daxili İşlər Nazirliyində - Sumqayıt şəhər Polis İdarəsində inspektor, 1993-2001-ci illərdə isə Ədliyyə Nazirliyində - Sumqayıt şəhər Ədliyyə Polis bölməsinin rəis müavini kimi fəaliyyət göstərir. Eyni zamanda o, işlədiyi sənətə uyğun ali təhsil almaq planını da qarşısına məqsəd qoyur və beləliklə 1998-2001-ci illərdə ikinci ali təhsil kimi Odlar Yurdu Universitetində hüquqşünas ixtisasına yiyələnir.

2002-2010-cu illər Ədliyyə Nazirliyi sistemində 11 saylı cəzaçəkmə müəssisəsində dəstə rəisi, 2010-1013-cü illərdə ZQAN Holdinqdə hüquqşünas-məhkəmə işləri üzrə icra bölməsinin rəhbəri, 2013-2016-cı illərdə "Bank of Azərbaycan" ASC-də məhkəmə işləri üzrə icra şöbəsinin müdiri kimi fəaliyyət göstərir. Daha sonra – 2016-2017-ci illərdə Əmanətlərin Sığortalanması Fondunda məhkəmə-icra işləri üzrə kurator işləyən F.M.Əhmədov ehtiyatda olan ədliyyə polis mayoru kimi təqaüdə çıxsa da, yenə də əmək fəaliyyətindən ayrılmaq istəmir. Belə ki, o 2017-ci ildən "Xaliq Faiqoğlu" MMC-də qaraj müdiri işləyir və marşrut avtobuslarının park olunması, texniki nasazlıqlarının aradan qaldırılması və s. kimi məsul işlərə nəzarəti həyata keçirməklə məşğuldur. Elə mən də onunla həmin müəssisədə görüşüb söhbətləşdim. İş rejiminin gərginliyi də diqqətimdən qaçmadı. Yəqin ki, işinə məsulliyyətlə can yandırdığına görəydi ki, onunla söhbətimiz də ekstern sorğu-sual əsasında keçdi. Ancaq buna baxmayaraq vaxt ayıra bildik ki, Xanağabulaq və ona qonşuluqda yerləşən Söyüdlü kəndinin bulaqları ilə bağlı sorğuma da cavablar ala bildim. Hətta bu məqamda onun internet vasitəsilə doğma kəndi olan Xanağabulağın erməni vandalizminə tuş gəlmiş acı mənzərəsini də ürək ağrısı ilə mənə göstərməsi hər ikimizi çox təsirləndirdi. Axı o yerlər ona da, mənə də tanış və doğma yerlər idi. Axı o yerlər bizə bir vaxtlar qoynunda yer vermişdi və biz ordan qanad açıb pərvazlanmışdıq bu günkü dünyamıza. Allah qismət eləsin bir də qayıdıb doğma kənd-kəsəyimizin qoynuna sığınaq, orada təzədən rahat məskən salıb yaşayaq. Aşıq Mustafanın ruhu dolaşan o yerlərdə təzədən çal-çağırlı həyatımızı bərpa eləyək.

*Şakir ALBALIYEV*